

**Ayətxan ZİYAD (İsgəndərov)**

## ELMİ MÜBAHİSƏLƏR:

## MÜLAHİZƏLƏR, QƏNAƏTLƏR

*httrs://orcid.orq/0000-0002-0034-6736*

*ayetxanziyad@mail.ru*

*+994-70 7303023; (+994-70-730-30-23 (wp)*

Qəlibləşmiş sterotiplərə qarşı çıxmaq cəhdi həmişə "topla-tüfənglə" qarşılanıb. Bu üzdən mülahizə və qənaətlərimin səmimi və anlaşıqlı qəbul olunmasını xahiş edirəm.

Etiraf edim ki, ədəbiyyatşünaslığın stereotipləşmiş bir neçə "qanunu" var ki, onları qəbul etmək, onlarla razılaşmaq şəxsən mənim üçün çətindir. Bu sıradan iki məqalə təqdim olunur:

1 - Uşaq ədəbiyyatı (uşaq əsəri), yoxsa uşaqlar üçün ədəbiyyat (uşaqlar üçün, yaxud uşaqlar haqqında və ya uşaqlardan bəhs edən əsərlər);

2 - Surət və obraz (fərqli baxış).

**I MƏQALƏ**

**UŞAQ ƏDƏBIYYATI**

*(uşaq əsəri),*

**YOXSA**

**UŞAQLAR ÜÇÜN ƏDƏBİYYAT?**

*(uşaqlar üçün, yaxud uşaqlar haqqında yazılan*

*və ya uşaqlardan bəhs edən əsərlər?)*

Bu mövzu illərlə qələm sahibləri, o cümlədən ədəbiyyatşünaslar və tənqidçilər tərəfindən birmənalı qarşılanmamış, konkret bir məcraya yönələ bilməmiş, bu gün də mübahisə predmeti olaraq qalmaqdadır. Hətta mövzuya “uşaq ədəbiyyatı” nöqteyi-nəzərindən yanaşılıb, amma “uşaqlar üçün” anlamında fəlsəfə doktoru dissertasiyalarının müdafiə olunduğu mövzular da var. Bu çaşqınlıqla uşaq kitabxanalarında da rastlaşmaq mümkündür. Şəxsən mən özüm “uşaq ədəbiyyatı” kafedralarının birində dissertasiya mövzusunun təsdiqi zamanı belə bir narahatlığın şahidi olmuşam.

Kafedra “filankəsin uşaq əsərlərinin sənətkarlıq məziyyətləri” adlı mövzunu təsdiq üçün Ali Attestasiya Komissiyasına göndərmişdi. Amma mövzu “filankəsin uşaqlar üçün əsərlərində sənətkarlıq məsələləri” adı ilə təsdiqlənib geri dönmüşdü. Bu hal kafedra əməkdaşları arasında ciddi

narazılıqla qarşılandı: “Biz tədqiqat işini bu yöndə istəməmişdik”, “Bunlar fərqli məsələlərdir”,

Əlbəttə, tədqiqatçı üçün mövzunu hansı yöndə işləməsinin elə bir önəmi yoxdur. Əksinə, “uşaqlar üçün əsərlərində” anlayışı “uşaq əsərlərinin” anlayışı ilə müqayisədə daha geniş, əhatəli məzmun daşıdığı üçün tədqiqatçıya daha ətraflı - yazıçının həm uşaq əsərlərini, həm də uşaqlar haqqında yazdığı əsərləri tədqiq etmək imkanı yaradır.

Məsələn, N.Gəncəvinin “Yaralı bir uşağın dastanı” ilə “Ata nəsihəti” əsərləri uşaq mənzum hekayələri kimi VI siniflərin tədris proqramına daxil edilmişdir. Həmçinin, “Atanın oğluna nəsihəti”, “Kərpickəsən kişinin dastanı”, eləcə də, S.Vurğunun “Azərbaycan”, Ana”, “Ceyran”, “Dağlar”, B.Vahabzadənin “Kitab”, “Müəllim”, “Bayraq”, “İlk dərs” və bu kimi bir sıra əsərlər uşaq ədəbiyyatı nümunəsi kimi təqdim olunur ki, əslində həmin əsərlər heç də uşaq şeirləri deyil, uşaqlardan bəhs edən əsərlərdir.

Zahid Xəlil, Füzuli Əsgərli və Bilal Həsənli kimi uşaq ədəbiyyatı biliciləri bu qənaətdədirlər ki, “uşaq ədəbiyyatı” dedikdə 3-17, 18 yaşadək oxucular üçün yazılan ədəbiyyat nəzərdə tutulur. Həm də yazıçı hansı yaş mərhələsi üçün yazdığını, deyək ki, məktəbəqədər yaşda uşaqlar üçün (3-6 yaş); kiçik məktəb yaşı dövrü (6-10 yaş); yeniyetməlik dövrü (10-14 yaş); yoxsa ilkin gənclik yaş həddi üçünmü (14-17 yaş) yazdığını irəlicədən nəzərə almalıdır [3. səh.13; 2. səh.3]. “Uşaq əsəri yaratmaq üşün sənətkarda istedad, əməksevərliklə yanaşı dünyaya uşaq gözləri ilə baxmaq, uşaq dünyasının incəliklərindən baş çıxarmaq bacarığı lazımdır. Yüksək sənət nümunəsi olan uşaqların bəyəndiyi əsəri yazmaq üçün sənətkarda bədii sözdən istifadə məharəti ilə yanaşı, uşaq qəlbinin, hiss və

duyğularının təbiiliyi, sadəliyi, təvazöğkarlığı, saflığı olmalıdır" [2. səh.7].

Məsələn, Z.Xəlilin "Uçan çıraqlar", "Mən rəngləri tanıyıram", "Göydən üç alma düşdü", "Torağaylar oxuyur", "Quşlar, quşlar", "Çıraq nənənin nağılları", "Yumru yumaq və Qumru", "Cırtdanla Azmanın yeni sərgüzəştləri", "Здраствуй Джиртан!" və s. şeir və nəsr əsərləri bu sıradandır.

"Uşaq yazıçısı necə və kimlər ola bilər?" sualını V.Q.Belinski belə cavablandırıb: "Uşaq yazıçısının yaranması üçün olduqca çox şərtlər vardır: nəcib, sevən, diqqətli, sakit, körpəcə sadədil bir qəlb, yüksək məlumatlı bir idrak, predmetlərə aydın bir baxış, yalnız canlı bir təsəvvür deyil, həm də şairanə bir xəyal, hər şeyi canlı, zəngin surətlər halında təsəvvür etməyə qabil bir xəyal lazımdır" [1. səh.12].

Uşaq ədəbiyyatı (uşaq əsəri) necə olmalıdır sualını yazıçı Zaur Ustac belə cavablandırır: o əsər hamı tərəfindən qəbul edilir ki, hər kəs oxuduğu "hər kəlmədə öz hiss və duyğularını görə bilir. Bir bənd şeiri min əhvallı oxucu oxuyur, hamısı da düşünür ki, bu sözlər məhz onun üçün deyilib. Söz sənətində ustalıq, ədəbiyyatda təqdimetmə bacarığı – obrazlılıq – məhz budur" [6. səh.123. "Obrazın özü" məqaləsi].

Tədqiqatçı Hədiyyə Şəfaqət isə belə mülahizə yürüdür: "... biz uşağı nə vaxt görə biliriksə, uşaq ədəbiyyatı o zaman yaranır. Uşağı görmək üçün gərək uşağın özü ola. Yəni, əyani material" [5.].

Fikrimizcə, mülahizənin daha dəqiq ifadə tərzi də mümkün idi. Başqa sözlə, fikrin "... biz uşağı nə vaxt görə biliriksə, uşaq ədəbiyyatı o zaman yaranır" kimi deyil, "hansı qələm

nümunəsinin içində uşaq dünyası görünürsə, həmin əsəri uşaq ədəbiyyatı nümunəsi qəbul etmək olar” tərzində ifadəsi daha düzgün olardı.

Təbii ki, qələm sahibi ədəbi qəhrəmanını necə görürsə, hansı tərzdə qəbul edirsə, düşüncələrini o yöndə də qələmə alır. H.Şəfaqət “Problem” rubrikalı məqaləsində uşaq ədəbiyyatının qəhrəmanları haqqında mülahizələrinin ardını belə ifadə edir: “uşaq çaşmalıdır, ayağı işləməlidir, “2” almalıdır, yeməyini dağıtmalıdır, süd içəndə ağzının böyür-başı bulanmalıdır. Uşaqdır axı” ... “Beləcə uşaq ədəbiyyatı yarada bilərik” [5.].

Biz XXI əsrin uşağına bunlarımı təlqin etməliyik? Pinti, XIX, yaxud XX əsrin birinci yarısında qalmış, II Dünya Müharibəsindən çıxmış bir ölkənin uşağınımı? Azyaşlıya bu təbiətli ədəbi qəhrəmanı təqdim etməklə onu bu simadamı görmək istəyirik?

Bəs azyaşlının özü necə? Bununla barışacaqmı?

Belə olan halda gəlin görək bu günün uşağı kimdir?

Mən XX əsrin II yarısında (1951-ci ildə) dünyaya gəlmiş nəslin nümayəndəsiyəm, bu yaşımda da mənə qaranlıq hər hansı işə əlimi bulaşdırmıram. Oğlum XX əsrin 80-ci illərinin əvvəlində (1981-ci ildə) dünyaya gəlib. Bir əlinin barmağının gücü çatmadığından iki əlinin barmaqlarını cütləşdirib televizorun pultunun düyməsini basıb uşaq filmlərinə baxırdı. Onun oğlu Ziyad XXI əsrin əvvəllərində (5 noyabr 2006-cı il) doğulub. Hələ əməlli danışmağı, qaydasınca yeriməyi bacarmadığı vaxtlardı, diski götürüb mənə uzadırdı ki, “baba, qoy”. Deyirdim ki, “mən bacarmıram, ata gəlib diski qoyar, sən də baxarsan”.

Sizcə mənə cavabı nə olsa yaxşıdır? “Məni qucağına götür, boyum çatsın, özüm qoyum”.

Mülahizəmi süd qardaşım Arif Dəmirovla bölüşəndə gülümsədi: sən XX əsrin 20-ci illərində dünyaya gəlmiş Ziyatxanın, Böyük Vətən Müharibəsinin ağrı-acıları, sarsıntıları içində böyümüş təfəkkür sahibinin oğlusan, oğlun XX əsrin 80-ci illərinin əvvəlində dünyaya gəlmiş nəslin törəməsidir, nəvən isə oğlunun oğludur, XXI əsrin əvvəllərində dünyaya gəlmiş nəslin nümayəndəsi.Təxminən 80 illik zaman hüdudunda doğulan üç nəslin nümayədəsinin təfəkkür tərzinə, hansı inkişaf yolu keçildiyinə diqqət yetirdinizmi?

XXI əsrin nümayəndəsi budur: qamışdan, qarğıdan “at” düzəldib çapan yox, səhərdən axşama qədər planşetlə, mobil telefonla, kompüterlə əlləşən!

Deməli, bu günün uşaq ədəbiyyatı da kimlər üçün yazıldığı ilə hesablaşmalıdır. Yazıçı “süd içəndə ağzının böyür-başını bulaşdıran” uşaq üçün yox, planşetlə oyuncaq kimi davranan uşaq üçün yazdığını ruhən qəbul etməlidir.

Əlbəttə, bunu da təbii qəbul etməliyik ki, uşaq – öz uşaq ömrünü yaşamalıdır. Həmçinin, unutmamalıyıq da ki, bu günün dərsdən “2” alan uşağı kimdənsə kömək gözləyən uşaq deyil, dərslərinə özü hazırlaşıb “2”-sini “5”-lə özü əvəz etməyi bacaran uşaqdır.

Türkiyə, Rusiya, Avropa, Amerika filmlərində uşaq surətlərini xatırlayaq: uşaq böyük bacı-qardaşı kimi danışır, iri adam düşüncəsi ilə mühakimə yürüdür, üzləşdiyi vəziyyətdən çıxış yolunu özü arayır.

Biz “hansı qələm nümunəsinin içində uşaq dünyası görünürsə, həmin əsəri uşaq ədəbiyyatı nümunəsi olaraq qəbul etmək olar” deyəndə, bu təbiətdə yazılan əsərləri nəzərdə tuturuq. Başqa sözlə, XXI əsrin uşağı XX əsr vətəndaşının tanıyıb-bildiyi uşaq deyil, tamamilə özgə təfəkkürə malik uşaqdır.

Bunu qəbul etməyə, zamanın bu diktəsi ilə barışmağa məhkumuq.

Nəticə: Qətiyyətli olaraq qəbul etmək gərəkir ki, uşaq ədəbiyyatı – uşaqlar haqqında yazılan, yaxud uşaqlardan bəhs edən əsərlər deyil, uşaq dünyası və bu dünyanın içində uşağın özü görünən əsərlərdir. Uşaq ədəbiyyatı - uşağı dərk etdiyimiz andan, uşaq dünyasını içimizə hopdurub onu təzədən yaşadığımız anlar qələmə alınan əsərlərdir.

Açar sözlər: uşaq dünyası, uşaq ədəbiyyatı, uşaqlar üçün ədəbiyyat.

♦♦♦

Bilimsel tartişmalar:

considerations, sonuçlar

Çocuk edebiyyatı mı,

yoksa çocuklar hakkında yazılmış,

ya da çocuklardan behs eden edebiyyat mı?

**ÖZET**

Kalıplşmış stereotiplere karşı çıkma çabası daima şiddetli itirazlarla savaşmıştır. Bu sebeple, iddialarımın ve kanaatlerimin içtenlikle ve anlayışla karşılanmasını rica ediyorum. İtiraf etmeliyim; edebiyat eleştirilerinde kalıplaşmış bir kaç kavramını kabullenmek, onlara katılmak benim için çok zor. Bu makalede ikisine yer vereceğim.

1. Çocuk edebiyatı (çocuk eseri) veya çocuklar için edebiyat (çocuklar okusun diye olanlar veya çocuklardan bahseden eserler)

2. Edebiyatta ‘suret’ ve ‘obraz’ (farklı bakıç açılarında)

Çocuk edebiyatı (çocuk eseri) veya çocuklar için edebiyat (çocuklar okusun diye olanlar veya çocuklardan bahseden eserler) adlandırılan mekalade; hangi eser çocuk edebiyatı (çocuk eseri) örnektir ve hangi eser çocuklar için yazılmış bir eser olarak kabul edilir, bu kavramlar açıklığa kavuşturulacaktır. Belirtmeliyim ki, uzun yıllar boyunca bu konu, edebiyat uzmanları ve eleştirmenler tarafından kesinlikle hoş karşılanmadı ve hala tartışma konusu olmaya devam etmektedir. Hatta konuya “çocuk edebiyatı” çerçevesinden bakılsa da “çocuklar için” anlamında savunulan tez konuları dahi bulunmaktadır.

Özellikle çocuk edebiyyatı uzmanları Zahid Halil, Fuzuli Askerli ve Bilal Hasanlı vardıkları sonuçlarda ısrarcıdırlar. Onlara göre “çocuk edebiyatı” 3-17 yaş arası okuyucular için yazılmış bir edebiyattır. Ayrıca yazarın hangi yaş grubu için yazdığı - örneğin okul öncesi çocuklar için mi (3-6 yaş); ortaokul yaşı (6-10 yaş); ergenlik (10-14 yaş); ya da erken ergenlik yaş sınırı

(14-17 yaş) için mi yazacağını önceden dikkate almalıdır. "Çocuk eseri yazmak için yazarda yetenek ve çalışkanlıkla beraber dünyaya çocuk gözleri ile bakmak, çocuk dünyasının naifliğinden anlayabilmek yeteneği gereklidir. Çocukların beğeneceği, yüksek sanat numunesi olacak bir eseri yazmak için yazarda edebi sözden istifade etme mahareti ile beraberçocuk kalbinin his ve duygularının doğallğı, sadeliği ve tevazusü, saflığı olmalıdır."

Çocuk edebiyatının çocuklarla ilgili olan eserler değil; çocukların iç dünyasını yansıtan, bir çocuğu anladığımız, onun dünyasını özümsediğimiz ve yeniden yaşadığımız anların kaleme alındığı eserler olduğu unutulmamalıdır.

Örneğin; Azerbaycan'da 6. Sınıf müfredatına dahil olan Nizami Gencevi'nin 'Yaralı Çocuğun Öyküsü' ile 'Baba Öğüdü' adlı eserleri çocuk manzum hikayeleri olarak, aynı zamanda 'Babanın Oğluna Nasihati', 'Kerpiç Yapan Adamın Öyküsü', Semed Vurgun'un 'Azerbaycan', 'Ana', 'Ceyran', 'Dağlar' ve Bahtiyar Vahabzade'nin 'Kitap', 'Muallim', 'Bayrak', 'İlk Ders' vb. Eserler çocuk edebiyatı numunesi gibi sunuluyor. Oysa bu eserler hiçde çocuk şiirleri değil, çocuklar için yazılmış eserlerdir.

Çocuk eserlerine örnek olarak ise; Zahid Halil Halil'in 'Uçan Lambalar', 'Ben Renkleri Tanıyorum', 'Gökten Üç Elma Düştü', 'Torağay Kuşları Ötüyor', 'Cırttan ile Azmanın Yeni Maceraları', 'Здраствуй Джиртан!' vb. eserleri gösterebiliriz.

♦♦♦

Научные обсуждения:

теоретические соображения,

выводы

Детская литература,

или литература для детей

**РЕЗЮМЕ**

Эта тема уже много лет однозначно не приветствуется владельцами пера, в том числе литературными критиками и критиками, и по сей день продолжает оставаться предметом дискуссия. Даже тема рассматривается через призму «детской литературы», но есть темы диссертаций, защищенные в смысле «для детей».

На своих выводах настаивают особо профессиональные детские писатели и детские критики и литературоведы Захид Халил, Физули Аскерлы и Билал Гасанлы, по их словам, «детская литература» - это литература, написанная для читателей от 3 до 17, 18 лет. Также, для какой возрастной группы пишет писатель, например, для дошкольников (3-6 лет); младший школьный возраст (6-10 лет); подростковый возраст (10-14 лет); или ранней юности следует учитывать, писал ли он для возрастного ограничения (14-17 лет).

Мы также считаем, что детская литература - это не о детях, а о детском мире. Детская литература - это произведение, написанное с момента, когда мы понимаем ребенка, с момента, когда мы впитываем его мир и снова переживаем его.

Потому что, например, в программу 6-го класса включены стихотворные рассказы Н. Гянджеви «Эпос о раненом ребенке» и «Отцовский совет», а также «Отцовский совет сыну», «Эпос о каменщике», а также произведения С. Вургуна «Азербайджан», «Мать», «Газель», «Горы», «Книга» Б. Вахабзаде, «Учитель», «Флаг», «Первый урок» и ряд других произведений не могут быть образцом любой детской литературы, эти произведения для детей являются письменными произведениями. Примерами детских работ являются, например, «Летящие огни», «Знаю цвета», «Три яблока с неба упали», «Поют воробьи»,

«Белые аисты» и другие книги З.Халила. Когда читаем эти произведения, мы можем увидеть мир детей.

Ключевые слова: детский мир, детская литература, литература для детей.

♦♦♦

Scientific discussions:

considerations, results

Children's literature,

or literature written about children,

ot that speaks of children?

**SUMMARY**

The effort to challenge stereotypes has always been fought with fierce objections. For this reason, I request that my claims and opinions be met with sincerity and understanding.

I have to admit; It is very difficult for me to accept and join a few stereotyped concepts in literary criticism. I will cover both in this article.

1. Children's literature, or literature written about children, ot that speaks of children?

2. 'Image' and 'obraz' in literature (from different perspectives)

In the section called children's literature (children's work) or children's literature (for children to read or works that talk about children); Which work is an example of children's literature (children's work) and which work is considered a work written for children, these concepts will be clarified. I should point out that for many years this topic was certainly not welcomed by literary scholars and critics, and it still remains the subject of debate. Even though the subject is viewed from the perspective of "children's literature", there are even thesis topics defended in the sense of "for children".

Especially children's literature experts Zahid Halil, Fuzuli Askerli and Bilal Hasanlı insist on their conclusions. According to them, “children's literature” is literature written for readers aged 3-17. Also for which age group the author is writing - for example, for preschool children (3-6 years old); secondary school age (6-10 years); adolescence (10-14 years); or the age limit of early adolescence (14-17 years) should consider in

advance whether he will write. “In order to write a children's work, the writer's talent and hard work, as well as the ability to look at the world with the eyes of a child, to understand the naivety of the children's world are necessary. In order to write a work that will be liked by children and that will be an example of high art, the author must have the skill of making use of the literary word, as well as the naturalness, simplicity, modesty and purity of the feelings and emotions of the child's heart.”

Children's literature is not about children; It should not be forgotten that there are works that reflect the inner world of children, the moments when we understand a child, absorb his world and live it again.

For example; Nizami Ganjavi's 'Story of the Wounded Child' and 'Father's Advice', which are included in the 6th grade curriculum in Azerbaijan, are also children's verse stories, 'Father's Advice to His Son', 'The Story of the Man Who Builds Adobe Brick', Semed Vurgun's Azerbaijan', 'Mother', 'Ceyran', 'Mountains' and Bahtiyar Vahabzade's 'Book', 'Teacher', 'Flag', 'First Lesson' etc. The works are presented as examples of children's literature. However, these works are not children's poems at all, they are works written for children.

As an example of children's works; Zahid Halil Halil's 'Flying Lamps', 'I Know Colors', 'Three Apples Fall from the Sky', 'Torağay Birds Sing', 'New Adventures of Velcro and Velcro', 'Здраствуй Джиртан!' etc. We can show the works.

Keywords: children's world, children's literature, literature for children.

♦♦♦

**Ədəbiyat siyahısı**

1. Belinski V.Q. Seçilmiş əsərləri. Bakı-1948;

2. Həsənli Bilal Azərbaycan uşaq ədəbiyyatı. Bakı-“Müəllim” nəşriyyatı-2015, 522 səh.;

3. Xəlil Zahid, Əsgərli Füzuli. Uşaq ədəbiyyatı. Bakı-2007, 490 səh.;

4. Xəlil Zahid. Azərbaycan uşaq ədəbiyyatı. Bakı-2019, 306 səh.;

5. Şəfaqət Hədiyyə. Uşaq ədəbiyyatında obrazlar və dərsliklər. Problem. 2 iyul 2012-ci il. [https://modern.az/az/news/25987;

6. Ustac Zaur. Qələmdar. Bakı-2020, 300 səh